*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 3*
*Səhifə: 49-53*
*http://dx.doi.org/10.59849/2663-4406.2024.3.49*

*ISSN: 2663-4406*
*E-ISSN: 2709-2699*

# Məhəmməd Füzuli və özbək ədəbiyyatı Xasanxoja Mahammadxojayevin tədqiqatlarında

**Lalə Əlizadə**
Filologiya elmləri doktoru, professor
Azərbaycan Memarlıq və İnşaat Universiteti
E-mail: tarana_abasova@bk.ru

**Annotasiya.** Xasanxoja Mahammadxojayevin "Füzuli və özbək ədəbiyyatı" adlı tədqiqatı bu gün də elmi-ədəbi mühitimiz üçün dəyərli, sanballı bir əsərdir. Məqalədə adını qeyd etdiyimiz tədqiqat işi əsasında "Əlişir Nəvai və Azərbaycan ədəbiyyatının tarixi kökləri", "Özbək klassik ədəbiyyatı və Füzuli", "Nəvai və Füzuli "Leyli və Məcnun" poemalarının ideya-bədii xüsusiyyətlərinin müqayisəsi" mövzularına toxunulmuş, XV əsr şairi Lütfi və Füzulinin lirik əsərlərində özünü göstərən ideya-poetik oxşarlıqlar müəyyən edilmiş, xüsusilə də Nəvai və Füzuli "Leyli və Məcnun"larındakı qəzəllərin özəllikləri ilə bağlı mövcud fikirlər nəzərdən keçirilmişdir. Həmçinin XVII-XIX əsrlərdə Füzulinin özbək poeziyasının nəzəri-praktik baxımdan inkişafına göstərdiyi təsirin öyrənilməsi prioritet məsələ kimi qoyulmuş, Füzulinin özbək xalqının şeir-sənət yaradıcılığının inkişafına təsiri ilə bağlı fikir yürüdülmüşdür.
Məqalədə Orta əsrlər təzkirəçilərindən başlayaraq, özbək-Azərbaycan, Azərbaycan-özbək xalqlarının qarşılıqlı elmi, bədii, mədəni münasibətlərinin tarixi kökləri xatırlanmış, Füzulinin özbək klassik poeziyasına təsiri iki qardaş xalqın mədəni əlaqələrinin mühüm tərkib hissəsi kimi dəyərləndirilmişdir. Bu nəticəyə gəlinmişdir ki, Füzulinin bədii-estetik, ictimai, əxlaqi görüşləri, fövqəladə şairlik istedadı özbək ədəbi mühitinə nüfuzedici təsir göstərmişdir.
**Açar sözlər:** Füzuli, Nəvai, məsnəvi, qəzəl, alleqoriya, ədəbi təsir

**Məqalə tarixçəsi:** göndərilib – 24.10.2024; qəbul edilib – 11.11.2024

# Mahammad Fuzuli and Uzbek literature in the studies of Khasankhoja Mahammadkhojayev

**Lale Alizade**
Doctor of Philological Sciences, Professor
Azerbaijan University of Architecture and Construction
E-mail: tarana_abasova@bk.ru

**Abstract.** Khasankhoja Mahammadkhojayev's research entitled "Fuzuli and Uzbek literature" is still a valuable work for our scientific and literary environment today. On the basis of the research whose name we mentioned in our report, we touched on the topics of "Alishir Navai and the historical roots of Azerbaijani literature", "Uzbek classical literature and Fuzuli", "Comparison of the ideological and artistic features of the poems of Navai and Fuzuli "Leyli and Majnun"" and the 15th century poet Lutfi and Fuzuli the idea-poetic similarities manifested in his lyrical works were determined, especially the current ideas about the peculiarities of the ghazals in Navai and Fuzuli's "Leyli and Majnun" were

reviewed. Also, in the 17th-19th centuries, the study of Fuzuli's influence on the development of Uzbek poetry from a theoretical-practical point of view was set as a priority issue, and an opinion was made about Fuzuli's influence on the development of poetry and art of the Uzbek people. The historical roots of the mutual scientific, artistic and cultural relations of the Uzbek-Azerbaijani and Azerbaijani-Uzbek peoples, starting with the Middle Ages tazkirists, were mentioned in the report. Fuzuli's influence on Uzbek classical poetry has been valued as an important component of the cultural relations between the two brotherly nations. It was concluded that Fuzuli's artistic-aesthetic, social and moral views, extraordinary poet's talent had a penetrating impact on the Uzbek literary environment.

**Keywords:** Fuzuli, Navai, masnavi, ghazal, allegory, literary influence

**Article history:** received – 24. 10.2024; accepted – 11.11.2024

## Giriş / *Introduction*

Özbək-Azərbaycan ədəbi əlaqələrinin tarixi qədimdən başlayıb, müasir dövrdə də uğurla davam edir. Adətən, bu mövzuda danışanda Nizami Gəncəvi və Əlişir Nəvai, Əlişir Nəvai və Məhəmməd Füzuli, Hüseyn Cavid və Əbdürrauf Fitrət, Səməd Vurğun və Qafur Qulam paralellərini aparırıq. Özbək ədəbiyyatının qüdrətli nümayəndələrinin irsi Azərbaycanda kifayət qədər öyrənil-mişdir. Bu sahədə sələflərimizdən Firidun bəy Köçərli, Salman Mümtaz, ustadlarımızdan Həmid Araslı, Məmməd Arif, Cənnət Nağıyeva, Pənah Xəlilov, müasirlərimizdən Kamil Vəliyev, Ramiz Əskər, Tərlan Quliyev, Almaz Ülvi, Elman Quliyev, Paşa Kərimov, Ataəmi Mirzəyev və başqalarının adlarını qürurla qeyd edə bilərik. Onların elmi əsərlərində özbək mütəfəkkirlərinin ədəbi təsir dairəsinin öyrənilməsi Azərbaycan komparativistikasının mühüm nailiyyətləridir. Lakin onu da qeyd etməliyik ki, özbək ədəbiyyatşünasları da Azərbaycan şair və yazıçılarının irsini tədqiq edib və hazırda da böyük maraqla öyrənirlər. Xasanxoja Mahammadxojayevin "Füzuli və özbək ədəbiyyatı" adlı tədqiqatı da bu qiymətli elmi irsin mühüm bir parçasıdır.

## Əsas hissə / *Main part*

Özbək-Azərbaycan ədəbi əlaqələrinin tarixi kökləri haqqında hələ orta əsrlər təzkirəçilərinin əsərlərindən məlumat alırıq. Belə ki, Qəstimonlu Lətifinin 1546-cı ildə bitirdiyi təzkirədə yazılır: "Füzuliyi-Bağdadi bu dövr şüərasındandır. Nəvai tərzinə yaxın ürək ovlayan bir tərzi, gözəl üslubu vardır. Tərzində orijinal və təbində yenilikçidir" [3, s.265].

Füzulinin müasiri olmuş həmyerlisi Əhdi Bağdadinin "Gülşəni-şüəra" təzkirəsində həmin fikirlərin davamını görürük. Təzkirəçi dahi şairin şəxsi keyfiyyətlərini sadalayaraq, onun sənətdə misilsiz, mahir olduğunu yazmaqla yanaşı, üslubunun özbək sələfinə yaxın olduğunu xüsusi vurğulayır: "Nəvaiyə yaxın türkcə şeirləri türk və moğolların dilinin əzbəridir. Türkcə şeirləri Rum zərifləri tərəfindən bəyənilmişdir" [2, s.27].

Hələ XV əsrdə, orta Asiyada özbək mədəniyyətinin çiçəkləndiyi dövrdə məşhur özbək şairi Əlişir Nəvai (1441-1501) tərəfindən yaradılan ədəbi məktəb Yaxın Şərqdə, o cümlədən Azərbaycan şairlərinin yaradıcılığına öz təsirini göstərirdi. Onu da xatırladaq ki, Nəvainin "Məcalisün-nəfais" təzkirəsinin dilinin XVI əsrin sonu – XVII əsrin əvvəllərində yaşamış Sadiq bəy Əfşarın "Məcməül- xəvas" təzkirəsinin dilinə yaxın olması haqqında akademik Həmid Araslı da məlumat vermişdir [1, s.47].

Əlişir Nəvainin Azərbaycan mühitində şöhrətlənməsi Şahqulu bəy, Süsəni bəy, Pəri Peykər kimi şairlərin, həmçinin Kişvəri, Həbibi, nəhayət, Məhəmməd Füzulinin yaradıcılığına ədəbi təsiri Azərbaycan ədəbiyyatşünaslarının tədqiqlərində daima vurğulanmışdır.





Əlbəttə ki, bu qarşılıqlı əlaqələr özbək alimlərinin araşdırmalarında da xüsusi hörmət və məhəbbətlə öz əksini tapmaqdadır.

Xasanxoja Mahammadxojayevin "Füzuli və özbək ədəbiyyatı" adlı namizədlik dissertasiyası qədim zamanlardan başlayan ədəbi-mədəni əlaqələrimizin genetik tarixi kökləri, məhz Füzulinin özbək ədəbiyyatı ilə sıx bağlılığını açıqlamaq baxımından çox dəyərlidir. Mövcud tədqiqatın məqsədi klassik özbək ədəbiyyatının qarşılıqlı əlaqələrinin ənənəvi xarakterini, Füzuli yaradıcılığının özbək şairlərinə (XVII əsrdən etibarən), orada formalaşan ədəbi məktəbin inkişafına və onun Özbəkistandakı ədəbi prosesə göstərdiyi təsir formalarını izləmək olmuşdur. Giriş, üç fəsil, nəticə və ədəbiyyat siyahısından ibarət olan dissertasiyada elmi-bədii, tarixi problemlərin araşdırılması ədəbi-mədəni əlaqələrlə yanaşı, xalqlar arasında dostluq və qardaşlığın möhkəmləndirilməsinə xidmət edir. H.Araslı, V.Zahidov, V.Abdullayeva, Quluzadə, A.Kayumova, E.Rüstəmov, Yusif Ziya Şirvani rus, özbək və digər alimlərin tədqiqlərinə tənqidi münasibətdə öz yerini tapır.

I fəsildə "Əlişir Nəvai və Azərbaycan ədəbiyyatı" özbək – Azərbaycan ədəbi əlaqələrinin tarixi köklərinin açıqlanmasına həsr edilmişdir. Bu isə hər iki xalqın məişət, milli adət-ənənələrinin də bir-birilə yaxınlığı, xüsusən dil qohumluğunda özünü bariz şəkildə göstərmişdir.

Müəllif Azərbaycan və özbək şairlərinin yaradıcılığında bir şairin digərinə ötürdüyü güclü təlqin elementlərinin müşahidə edildiyini müvafiq örnəklərlə diqqətə çatdırır. Məsələn, Nizami, Xaqani, Nəsimi, Kişvəri, Füzuli, Sabir, Axundov, Əhməd Yasəvi, Kutba Xarəzmi, Xoudar Xarəzmi, Lütfi, Nəvai, Munis Xarəzmi, Arahi, Furqan və s. Avtoreferatda Əlişir Nəvainin Nizami, Xaqani, Nəsimi yaradıcılığına və şəxsiyyətlərinə münasibəti çeşidli faktlar əsasında açıqlanır, eləcə də Nəvainin bədii irsinin Azərbaycan şairlərinin yaradıcılığına təsiri problemləri nəzərdən keçirilir.

"Klassik özbək ədəbiyyatı və Füzuli" fəslinə "Lütfi və Füzuli", "Nəvai və Füzuli", "Leyli və Məcnun"larının ideya-bədii keyfiyyətlərinin müqayisəli təhlili bölmələri daxildir. Müəllif "Nəvai və Füzuli" bölməsində Füzulinin Nəvai yaradıcılığına münasibətindən söz açarkən Füzulinin Nəvaini söz sənətinin mahir ustalarından biri saydığını göstərir. Füzulinin özbək ədəbiyyatını dərindən bildiyini və Lütfinin qəzəllərinə bənzətmələr etdiyini yazır.

Maraqlıdır ki, burada akademik Həmid Araslının tədqiqatından da sitat verilir. Müəllif Füzuli qəzəllərinin əksəriyyətində Nəvai təsiri duyulduğunu bildirsə də, onun görkəmli bir şair kimi orijinal sənət nümayiş etdirdiyini də yazır. "Leyli və Məcnun" əsərlərinə həsr olunmuş bölmədə müəllif iki dahi şairin əsərlərinin təhlilinə, ideya-bədii xüsusiyyətlərinin səciyyələndirilməsinə çalışmışdır.

Burada bildirilir ki, hər iki əsərdə səmimi insani məhəbbət vəsf olunur. Hər iki şairin məqsədi aşiqlərin bədbəxt sevgisindən danışmaq deyil. Onların ikisi də xalq əfsanəsini bir daha nəzərdən keçirib, Leyli ilə Məcnunun yaşadıqları mühitdə acı-bədbəxt talelərinin sosial şəraitdən asılı olduğunu göstərir.

Nəvai və Füzuli "Leyli və Məcnun"larının müqayisəsində fərqli cəhətlərdən danışarkən hər ikisinin lirik-epik janrda işlənmələrinə rəğmən, birincidə dramatizmin, hadisələrin ciddi konflikt üzərində qurulduğu, digərində lirizmin üstünlüyü və qəhrəmanların mənəvi aləmlərinin tərənnümü-nün psixoloji planda ortaya çıxdığı göstərilir. Nəticə etibarilə, hər iki poemada ictimai problemlər ön plana çəkilir, mövcud epoxanın, geri qalmış feodal hakimləri ilə qabaqcıl insanların öz azadlıqları uğrunda mübarizələri konfliktin əsas hərəkətverici qüvvəsi kimi izah olunur. "Leyli və Məcnun" poemaları ətrafındakı təhlillərdə qəhrəmanların, kompozisiyanın qurulmasında bədii təcəssüm vasitələrindən məharətlə istifadələri vurğulanır. Müəllif son olaraq yazır ki, məşhur ərəb əfsanəsi əsasında Şərq ədəbiyyatında yaranan "Leyli və Məcnun"lar arasında Nəvai və Füzuli poemaları öz ideya-bədii keyfiyyətlərinə görə xüsusi yer tutur.

Füzulinin Nəvaiyə rəğbətinin davamı olaraq özbək şairlərinin də Füzuli yaradıcılığına yönələn sevgi, maraq və təsirlənmələri də X.Məhəmmədxocayev səxavətlə, bədii-estetik cəhətdən çox

ədalətli şəkildə ortaya qoymağa çalışmışdır. Düşünürük ki, sözügedən tədqiqat işinin ən önəmli cəhəti "Füzuli ənənələri özbək ədəbiyyatında" adlanan üçüncü fəsildə daha bariz şəkildə verilir.

Belə ki, Füzulinin XVII-XIX əsrlərdə özbək poeziyasının inkişafına təsiri – Nəvaidən sonra nəzəri-praktik cəhətdən çox əhəmiyyətli rol oynaması xüsusilə dəyərləndirilir.

Avtoreferatda müəllif dövrün tələblərindən irəli gələrək Füzuli "Leyli və Məcnun" poemasının irfani, fəlsəfi-estetik mahiyyəti, şairin real dünya ilə ölümdən sonrakı həyat haqqında düşüncələrinə, dini-təsəvvüfi çalarlarına münasibət bildirməsə də, ümumilikdə lirik şeirlərin sənətkarlıq qüdrətini xüsusi olaraq diqqət mərkəzinə çəkir və onun bədii-estetik, məcazi-metaforik poetik bəzək, təsvir və ifadə vasitələrinin özbək şairlərinin lirik şeirlərində yüksək səviyyədə əksini tapdığını müqayisəli şəkildə müvafiq nümunələrlə açıqlayır. Şairin bədii irsinin əsasən qəzəllərdən ibarət olduğunu və bu janrda öz sevimli qəhrəmanlarının, aşiqlərin daruni hiss və həyəcanlarını qeyri-adi ustalıqla tərənnüm və təsvir etdiyini ehtiramla xatırladır. Alim yazır: "Füzulinin əsərləri klassik özbək ədəbiyyatının ayrılmaz hissəsi olmuşdur" [5, s.4].

Tədqiqatçı özbək poeziya ustalarının Füzulinin yaradıcılığına olan məhəbbət və ehtiramını onun qəzəllərinə yazdıqları təxmislərdə və "Leyli və Məcnun"dan ilhamlanaraq qələmə aldıqları qəzəllərdə aşkar hiss olunduğunu göstərir və dahi şairin ictimai-siyasi hadisələrə münasibətinin özbək ədəbiyyatında analoji mövzuların meydana çıxmasına şərait yaratdığını bildirir.

Dissertasiyada özbək şairlərindən Turdı, Maşrab, həmçinin Əmirinin qəzəl və müxəmməslərində Füzuli təsirinin açıq hiss edildiyi qeyd edilir. "Füzuli və özbək demokratik ədəbiyyatı"ndan söz açarkən Mühimi, Furqat, Həmzə kimi şairlərdən nümunələr gətirilir. Adıçəkilən özbək müəlliflərinin şairin daha çox "Dust bipərva, fələk birəhm, dövran bisükun" və "Məni candan usandırdı, cəfadan yar usanmazmı?" misraları ilə başlayan qəzəllərinə müraciət etdikləri nəzərə çatdırılır.

Sözügedən dissertasiyanın müvafiq bölməsində Füzuli ənənələrinə münasibətin iki istiqamətdə olduğu bildirilir. Əgər Mukimi şeir vəznində, ritmində Füzuliyə yaxın idisə, Furqat və Həmzədə onun bədii ustalığı, poetik əhval-ruhiyyəsi özünün əksini tapırdı. Maraqlı bir fakt nəzərə çatdırılır ki, Furqat öz həmvətənlərinə xaricdən yolladığı məktublarında Füzuli şeirləri üçün darıxdığını yazırdı. Öz növbəsində Füzuli qəzəlləri ruhunda bir sıra lirik şeirlər yaratmışdır və dahi şairin poetik istedadının portret – mənzərə yaratmaq sirrini öyrənməyə çalışdığını da müəllif uyğun misallarla diqqətə çatdırır.

Beləliklə, "Füzuli və özbək demokratik ədəbiyyatı fəslində bu böyük mütəfəkkirin inqilabaqədərki dövrdə göstərdiyi ideya – estetik təsirini xatırladır. Dissertasiyada yer alan bölmələrin birində Füzuli ədəbi istedadının poetik talantının pərəstişkarı, adı naməlum olan Əndican şairinin "Çay və Küknar" əsərini Füzulinin "Bəngü Badə"sinin təsiri ilə yazdığını bildirir. Əsərdə Fərqanə xanlığının Narbuta, Əlimxan kimi hakimlərinin adlarının çəkildiyi bildirilir. Əsərin müəllifi ön sözündə özünü Füzulinin ardıcılı hesab edir və həmin əsərin Füzuliyə bənzətmə olduğunu yazır. Bu isə nəticə çıxarmağa əsas verir ki, özbək müəllifləri Füzulinin təkcə qəzəllərinə və müxəmməslərinə nəzirə yazmamış, onun qəzəllərini təxmis etməmiş, həm də onun poemalarının təəssüratı altında genişhəcmli epik əsərlər də qələmə alıb, obrazlar sistemini də mənimsəmişlər. Avtoreferatda "Bəngü Badə"nin süjet, kompozisiya baxımından Əndican şairinin əsərinə nə qədər təsir göstərdiyini təsdiqləmək üçün dissertasiyada əsaslı, inandırıcı dəlil-nümunələr verildiyi bildirilir.

Müəllifin Füzuli yaradıcılığının özbək şairləri və oxucuları arasındakı belə populyarlığının səbəbini, ilk növbədə, bədii irsinin üç dildə yazılması ilə izah edir. Bundan əlavə, Azərbaycan dilinin fonetikasının incəliyinin də bu işdə önəmli rol oynadığını nəzərə çatdırır. Məhz bu səslənməyə görə bəzi özbək şairləri (Qazi Şövqi, Miri) öz güclərini azərbaycanca şeirlərində sınaqdan çıxarırdılar, yoxlayırdılar.

Nəhayət, "Füzuli əsərlərinin özbək dilinə tərcüməsi" fəslində əlyazmalarından ta müasir dövrümüzəcən meydana çıxan əsərləri haqqında xronoloji şəkildə məlumat verilir.





### Nəticə / *Conclusion*

Beləliklə, fəxrlə deyə bilərik ki, dahi Azərbaycan şairi Məhəmməd Füzuli qardaş Özbəkistanda daima sevilib, tədqiq, təhlil edilib, dəfələrlə tərcümə və çap olunmuşdur. Bu elmi tədqiqat işinin müsbət cəhəti bir də ondadır ki, ənənə və novatorluq sələflər və xələflər probleminə müəllif çox həssaslıqla yanaşaraq Məhəmməd Füzulinin özbək ədəbi-mədəni mühitə nüfuz və təsirini yüksək səviyyədə təqdim edə bilmişdir. Biz də öz növbəmizdə müəllifin nəticədə yazdığını təkrarlayaraq deyirik ki, Füzuli və özbək ədəbiyyatı problemi nəzəri cəhətdən olduğu kimi, təcrübi baxımdan da aktualdır. Bu fikir hazırda öz əhəmiyyətini bir daha təsdiqləyir və davamını tapmaqdadır.

### Ədəbiyyat / *References*


1. Araslı, H. Böyük Azərbaycan şairi Füzuli. – Bakı: Uşaqgəncnəşr, 1958.
2. Bağdadi, Ə. Ş. Gülşəni-şüəra. – Bakı: əlyazmanın fotofaksimile nəşri, 2020.
3. Kastamonulu, L. Tazkire-i Latifi. – İstanbul: İkdam Matbaası, 1314.
4. Məhəmməd F. Elmi-tədqiqi məqalələr (vəfatının 400 illiyi münasibətilə), red.: Ə.Cəfər. – Bakı: Azərnəşr, 1958.
5. Махаммадходжаев, Х. Физули и узбекская литература (автореферат). – Ташкент, 1972.


## Мухаммед Физули и узбекская литература в исследованиях Хасанходжи Мухаммадходжаева

**Лале Ализаде**
Доктор филологических наук, профессор
Азербайджанский университет архитектуры и строительства
E-mail: tarana_abasova@bk.ru

**Резюме.** Исследование Хасанходжи Мухаммадходжаева «Физули и узбекская литература» и сегодня остается ценным трудом для нашей научно-литературной среды. На основе исследования затронуты темы «Алишир Наваи и исторические корни азербайджанской литературы», «Узбекская классическая литература и Физули», «Сравнение идейно-художественных особенностей поэм Наваи и Физули «Лейли и Меджнун»» и определено идейно-поэтическое сходство, проявившееся в лирических произведениях поэта XV века Лютфи с Физули, особенно рассмотрены современные представления об особенностях газелей в «Лейли и Меджнун» Наваи и Физули. Также изучение влияния Физули на развитие узбекской поэзии в XVII-XIX веках с теоретико-практической точки зрения было поставлено в качестве приоритетного вопроса и высказано мнение о влиянии Физули на развитие поэзии и искусства узбекского народа.

В статье были упомянуты исторические корни взаимных научных, художественных и культурных связей узбекского и азербайджанского народов, начиная со средневековых тазкиристов. Влияние Физули на узбекскую классическую поэзию оценивается как важный компонент культурных связей между двумя братскими народами. Сделан вывод, что художественно-эстетические, социальные и нравственные взгляды Физули, незаурядный талант поэта оказали проникающее влияние на узбекскую литературную среду.

**Ключевые слова:** Физули, Наваи, маснави, газель, аллегория, литературное влияние